No: 04 2026
https://doi.org/10.64400/ea26-04-16
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

44 GÜNLÜK VƏTƏN MÜHARİBƏSİNDƏ AZƏRBAYCANIN ZƏFƏRİ: SİYASİ QƏRARVERMƏ, STRATEJİ KOMMUNİKASİYA VƏ DÖVLƏT LİDERLİYİ

Vüsalə ƏBDÜRRƏHİMOVA
Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində Sənaye və Texnologiya Kolleci, Bakı, Azərbaycan
**Yazışılan müəllif:* ebdurehimovavusale@mail.ru

NƏŞR TARİXİ:
Qəbul edilmə tarixi: 20.11.2026
Nəşr edilmə tarixi: 30.11.2026

AÇAR SÖZLƏR:
44 günlük Vətən müharibəsi, İkinci Qarabağ müharibəsi, İlham Əliyev, siyasi liderlik, strateji kommunikasiya, Şuşa, 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanat

XÜLASƏ
Məqalədə 27 sentyabr-10 noyabr 2020-ci il tarixlərini əhatə edən 44 günlük Vətən müharibəsinin siyasi-tarixi əhəmiyyəti və Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin müharibə dövründəki siyasi-strateji fəaliyyəti təhlil edilir. Tədqiqatda münaqişənin siyasi-hüquqi fonu, hərbi əməliyyatların başlanması, müharibə dövründə dövlət idarəçiliyi və informasiya siyasəti, beynəlxalq diplomatik kommunikasiya, 8 noyabrda Şuşanın azad edilməsi və 10 noyabr tarixli üçtərəfli Bəyanatın siyasi nəticələri ardıcıllıqla araşdırılır. Mənbə bazasını Azərbaycan Respublikası Prezidentinin rəsmi internet səhifəsində dərc olunmuş çıxış və sənədlər, BMT Təhlükəsizlik Şurasının qətnamə və sənədləri, habelə mövzu üzrə Azərbaycan və xarici elmi ədəbiyyat təşkil edir; materiallar xronoloji-müqayisəli və keyfiyyət məzmun təhlili metodları ilə öyrənilir. Məqalədə prezidentin fəaliyyətinin dörd istiqamətdə – siyasi qərarvermə, hərbi-siyasi koordinasiya, beynəlxalq kommunikasiya və müharibədən sonrakı siyasi çərçivənin formalaşdırılması – özünü göstərdiyi əsaslandırılır. Eyni zamanda, hərbi nəticənin yalnız bir siyasi şəxsin fəaliyyəti ilə izah edilməsinin metodoloji baxımdan məhdud olduğu, nəticəyə ordunun hazırlığı, hərbi qulluqçuların fədakarlığı, dövlət institutlarının işi, hərbi-texniki, iqtisadi və diplomatik amillərin birgə təsir göstərdiyi vurğulanır. Tədqiqatın məqsədi 44 günlük müharibənin Azərbaycanın müasir tarixindəki yerini və prezidentin həmin prosesdə sənədlərlə təsdiqlənən siyasi-strateji rolunu sistemli şəkildə göstərməkdir.

GİRİŞ

2020-ci il sentyabrın 27-də başlanan və noyabrın 10-da imzalanmış üçtərəfli bəyanat əsasında hərbi əməliyyatların dayandırılması ilə nəticələnən 44 günlük Vətən müharibəsi Azərbaycan Respublikasının müasir tarixində mühüm dönüş nöqtələrindən biri olmuşdur. Müharibə 1994-cü ildən etibarən Ermənistan–Azərbaycan münaqişəsində formalaşmış hərbi-siyasi status-kvonu (Broers, 2019; de Waal, 2013) dəyişdirərək yeni reallıq yaratdı. Buna görə müharibənin gedişi və nəticələri yalnız cəbhədəki əməliyyatlar kontekstində deyil, həm də dövlət idarəçiliyi, diplomatik fəaliyyət, beynəlxalq informasiya mühiti və müharibədən sonrakı siyasi proseslərlə əlaqəli şəkildə kompleks araşdırılmalıdır.

44 günlük müharibə tarixdə əhəmiyyətli mövqe tutmaqla yanaşı, eyni zamanda Azərbaycan dövlətçiliyinin, xarici siyasətinin, milli təhlükəsizlik yanaşmasının və kollektiv tarixi yaddaşın öyrənilməsi aspektindən də mühüm tədqiqat obyektidir.

Mövzu üzrə ədəbiyyatı şərti olaraq üç qrupa ayırmaq olar. Birinci qrupa münaqişənin tarixi-siyasi kökləri, 1990-cı illərin müharibəsi və uzunmüddətli danışıqlar prosesi haqqında fundamental əsərlər daxildir (Broers, 2019; Cornell, 2011; de Waal, 2013). İkinci qrup tədqiqatlarda 2020-ci il müharibəsinin hərbi-texnoloji və strateji aspektləri, o cümlədən pilotsuz uçuş aparatlarının və müasir hava hücumundan müdafiə sistemlərinin rolu araşdırılır (Cheterian, 2024; Gressel, 2020). Üçüncü qrupa isə müharibənin siyasi nəticələrinə və prezidentin fəaliyyətinə həsr olunmuş azərbaycanlı müəlliflərin tədqiqatları, eləcə də beynəlxalq analitik mərkəzlərin hesabatları daxildir.

Məqalənin mənbə bazasını bu elmi ədəbiyyatla yanaşı, rəsmi sənədlər də təşkil edir. Bunlara Azərbaycan Respublikası Prezidentinin rəsmi internet səhifəsində dərc olunmuş, 27 sentyabr 2020-ci ildən 6 yanvar 2021-ci ilədək olan dövrü əhatə edən xalqa müraciətlər, çıxışlar və Təhlükəsizlik Şurasının iclaslarına dair materiallar, həmçinin 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanat daxildir. Mənbələr sırasına BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 822, 853, 874 və 884 saylı

qətnamələr, eləcə də üçtərəfli Bəyanatın Təhlükəsizlik Şurasının rəsmi sənədi kimi yayılmasına dair məktub da daxil edilmişdir (United Nations Security Council, 2020).

Leyla Talışınski (2025) İkinci Qarabağ müharibəsinin siyasi nəticələrini ümumiləşdirərək qələbənin təmin edilməsində prezidentin rolunu öz məqaləsində xüsusi olaraq vurğulamış, Tofiq Mustafazadə (2022) müharibə dövründə prezidentin xarici media qurumlarına verdiyi müsahibələri informasiya təminatının ayrıca istiqaməti kimi təhlil etmişdir. Bu məqalədə də mövcud ədəbiyyat əsasında siyasi liderliyin qərarvermə, kommunikasiya və diplomatik rəsmiləşdirmə ölçüləri, bir qayda olaraq, ayrı-ayrılıqda nəzərdən keçirilərək həmin yanaşmaları vahid siyasi-strateji çərçivədə özündə birləşdirir.

Tədqiqatın məqsədi 44 günlük müharibənin siyasi-tarixi xüsusiyyətlərini sistemləşdirmək və İlham Əliyevin müharibə dövründəki sənədlərlə təsdiqlənən fəaliyyətini siyasi qərarvermə, diplomatik kommunikasiya, informasiya siyasəti və müharibə nəticələrinin siyasi rəsmiləşdirilməsi istiqamətlərində təhlil etməkdir. Tədqiqat prosesində "44 günlük müharibə müddətində prezidentin siyasi-strateji fəaliyyəti hansı mexanizmlər və qərarlar vasitəsilə özünü göstərmişdir?" sualına cavab verilir.

Məqalənin elmi yeniliyi prezidentin Ali Baş Komandan və siyasi lider kimi rolunun kompleks şəkildə təhlil edilməsindən ibarətdir. Siyasi liderlik fərdi keyfiyyətlərin məcmusu və lider, dövlət institutları və cəmiyyət arasında qarşılıqlı təsir prosesi kimi nəzərdən keçirilir (Burns, 1978). Bu yanaşma prezidentin fəaliyyətini siyasi qərarvermə, strateji kommunikasiya və diplomatik nəticələrin idarə olunması baxımından araşdırmağa, onun rolunu digər obyektiv və institusional amillərlə əlaqəli şəkildə qiymətləndirməyə imkan verir.

MATERİAL VƏ METODLAR

Tədqiqatda tarixi-müqayisəli metod, sistemli təhlil, keyfiyyət məzmun təhlili (Krippendorff, 2018) və sənədlərin xronoloji müqayisəsi metodlarından istifadə edilmişdir. Məzmun təhlili dörd analitik kateqoriya üzrə aparılmışdır: siyasi qərarvermə, hərbi-siyasi koordinasiya, informasiya-diplomatik kommunikasiya və hərbi nəticələrin siyasi rəsmiləşdirilməsi. Məqalədə Prezidentin çıxışları müharibə dövründə dövlətin informasiya və diplomatik kommunikasiya mexanizmlərini izləməyə imkan verən ilkin mənbə kimi nəzərdən keçirilmişdir. Akademik ədəbiyyat isəhadisələrin rəsmi gedişatını elmi tədqiqatlarla müqayisə etməyə imkan vermişdir.

Tədqiqatın mənbə bazası və metodoloji imkanları ilə yanaşı, onun müəyyən məhdudiyyətləri də vardır. Belə ki, hərbi komandanlıq səviyyəsində qəbul edilmiş qərarlara dair arxiv sənədlərinin hələlik açıq elmi dövriyyədə olmaması prezidentin rolunun qiymətləndirilməsində əsasən açıq rəsmi mənbələrə istinad etməyi zəruri edir. Buna görə də tədqiqatda prezidentin fəaliyyəti yalnız mövcud mənbələr əsasında sənədləşdirilməsi mümkün olan siyasi qərarlar və çıxışlar çərçivəsində təhlil olunur. Bu məhdudiyyət hərbi qərarların qapalı mexanizmləri barədə qəti nəticələr çıxarmağa imkan verməsə də, açıq mənbələr əsasında siyasi liderliyin və strateji kommunikasiya fəaliyyətinin qiymətləndirilməsinə mane olmur.

NƏTİCƏLƏRİN MÜZAKİRƏSİ

Müharibəyə aparan siyasi-tarixi fon

Qarabağ münaqişəsinin 2020-ci ildə yenidən genişmiqyaslı hərbi mərhələyə keçməsi uzunmüddətli siyasi və təhlükəsizlik proseslərinin nəticəsi idi. 1990-cı illərin əvvəlindəki müharibə nəticəsində "Dağlıq Qarabağ" və ona bitişik yeddi rayon işğal olunmuşdu. BMT Təhlükəsizlik Şurası 1993-cü ildə qəbul etdiyi 822, 853, 874 və 884 saylı qətnamələrdə Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü təsdiqləyərək işğal olunmuş rayonlardan işğalçı qüvvələrin dərhal çıxarılmasını tələb etmişdi (United Nations Security Council, 1993a, 1993b, 1993c, 1993d). 1994-cü ilin mayında əldə olunmuş atəşkəsdən sonra ATƏT-in Minsk qrupu çərçivəsində uzunmüddətli danışıqlar aparılsa da, yekun siyasi nizamlanma əldə edilməmişdi (Broers, 2019; de Waal, 2013).

2020-ci ilin iyulunda Tovuz istiqamətində baş vermiş toqquşmalardan sonra gərginlik artmış, sentyabrın 27-də isə cəbhə xəttində genişmiqyaslı hərbi əməliyyatlar başlamışdır. Prezidentin həmin

gün xalqa müraciətində Ermənistan silahlı qüvvələrinin bir neçə istiqamətdən yaşayış məntəqələrini və hərbi mövqeləri atəşə tutması, habelə dövlətin cavab tədbirləri barədə mövqeyi ifadə olundu (Azərbaycan Respublikası Prezidenti, 2020a). Həmin gün keçirilmiş Təhlükəsizlik Şurasının iclasında isə əks-hücum əməliyyatının başlandığı elan edilmişdir (Azərbaycan Respublikası Prezidenti, 2020b).

Bu mərhələdə İlham Əliyevin siyasi fəaliyyəti, ilk növbədə, dövlət mövqeyinin açıq şəkildə ifadə olunması və dövlət idarəçiliyinin vahid siyasi xətt üzrə təşkili ilə xarakterizə olunur. Prezidentin çıxışları və Təhlükəsizlik Şurasının iclaslarına dair materiallar göstərir ki, müharibə dövründə hərbi məsələlərlə yanaşı, beynəlxalq hüquq, diplomatik mövqe və informasiya təhlükəsizliyi məsələləri də paralel olaraq gündəmdə saxlanılmışdır (Azərbaycan Respublikası Prezidenti, 2020a, 2020b). Bu, siyasi liderliyin yalnız hərbi qərarlarla məhdudlaşmadığını göstərən mühüm amildir.

Siyasi qərarvermə və hərbi-siyasi koordinasiya

Azərbaycan Respublikasının Prezidenti eyni zamanda Silahlı Qüvvələrin Ali Baş Komandanı olaraq 44 günlük müharibə dövründə siyasi rəhbərliklə hərbi idarəetmə arasında institusional əlaqənin əsas fiqurlarından biri olmuşdur. Mülki-hərbi münasibətlər nəzəriyyəsində siyasi rəhbərliyin müharibənin siyasi məqsədlərini müəyyənləşdirməsi, peşəkar hərbi komandanlığın isə əməliyyat səviyyəsində qərarlar qəbul etməsi klassik bölgü kimi qəbul edilir (Huntington, 1957). Prezidentin sonrakı çıxışlarında müharibə ərzində əldə edilmiş hərbi nəticələr, azad edilmiş yaşayış məntəqələri və "Şuşa əməliyyatı"nın əhəmiyyəti haqqında məlumat verilmişdir (Azərbaycan Respublikası Prezidenti, 2020f, 2021).

Mənbələrdən görünən əsas məqam hərbi əməliyyatlarla bağlı qərarların onların siyasi nəticələri ilə birlikdə təqdim edilməsidir. Məsələn, 8 noyabrda Şuşanın azad edilməsinin ardınca hərbi əməliyyatların sonrakı gedişi və insan itkiləri məsələsi siyasi qərarvermə kontekstində izah edilmişdir (Azərbaycan Respublikası Prezidenti, 2020e). Lakin burada fərdi liderliklə kollektiv hərbi fəaliyyətin sərhədlərini metodoloji baxımdan qorumaq vacibdir. Qələbənin hərbi nəticəsi Azərbaycan Ordusunun hazırlığı, şəxsi heyətin döyüş fəaliyyəti, komandanlıq strukturlarının işi, hərbi-texniki imkanlar və digər amillərin qarşılıqlı təsiri ilə formalaşmışdır. Xarici tədqiqatlarda da müharibənin nəticəsi pilotsuz uçuş aparatlarının tətbiqi, artilleriya ilə kəşfiyyatın əlaqələndirilməsi, taktiki yeniliklər və əlverişli siyasi-diplomatik kontekst kimi amillərin məcmusu ilə izah olunur (Cheterian, 2024; Gressel, 2020).

İnformasiya siyasəti və beynəlxalq kommunikasiya

Müasir müharibələrin hibrid xarakter daşıdığını nəzərə alsaq, 44 günlük müharibənin döyüş meydanı ilə paralel olaraq informasiya məkanında da aparıldığını müşahidə edərik (Mustafazadə, 2022). Müharibə dövründə beynəlxalq media ilə kommunikasiya dövlətin xarici auditoriyalara mövqeyini çatdırmasının əsas vasitələrindən birinə çevrilmişdi. Mustafazadənin (2022) araşdırmasına görə, müharibənin 44 günü ərzində İlham Əliyev Türkiyə, Rusiya, ABŞ, Fransa, İtaliya, Almaniya, Böyük Britaniya, İspaniya, Yaponiya və Qətərin tanınmış media qurumlarına 30-a yaxın müsahibə vermişdir. Müəllif bu müsahibələri media növləri üzrə qruplaşdıraraq informasiya təminatının ayrıca istiqaməti kimi təhlil edir.

Prezidentin 2020-ci ilin oktyabr və noyabr aylarında verdiyi müsahibə və çıxışlarda əsas xətt Azərbaycanın münaqişəyə dair mövqeyinin izah edilməsi, hərbi əməliyyatların siyasi-hüquqi çərçivəsinin təqdim olunması və Azərbaycan tərəfinin arqumentlərinin beynəlxalq ictimaiyyətə çatdırılması olmuşdur. Bu fəaliyyətin əhəmiyyəti ondan ibarət idi ki, müharibə haqqında beynəlxalq informasiya axınında müxtəlif mövqelər mövcud idi. Akademik baxımdan prezidentin kommunikasiya fəaliyyətini "informasiya müharibəsində qələbə" kimi qiymətləndirməzdən əvvəl onun konkret parametrlərini, mesajların tezliyini, auditoriyanın genişliyini, mövzuların seçimini və dövlət mövqeyinin ardıcıllığını ölçmək daha məqsədəuyğundur.

İnformasiya siyasətinin digər xüsusiyyəti daxili və beynəlxalq auditoriyaların eyni vaxtda nəzərə alınması idi. Xalqa müraciətlərdə hərbi vəziyyət, itkilər, ərazi dəyişiklikləri və siyasi qərarlar haqqında məlumat verilirdi (Azərbaycan Respublikası Prezidenti, 2020a, 2020c, 2020e). Xarici

mediaya müsahibələrdə isə daha çox beynəlxalq hüquq, regional təhlükəsizlik və münaqişənin siyasi tarixçəsi izah edilirdi (Mustafazade, 2022). Bu ikili kommunikasiya xətti siyasi liderliyin informasiya ölçüsünü göstərən mühüm nümunələrdir.

Diplomatik fəaliyyət və beynəlxalq hüquqi çərçivə

Müharibənin gedişində hərbi nəticələrlə yanaşı, diplomatik mühitin idarə edilməsi də mühüm əhəmiyyət daşıyırdı. 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatla atəşin və bütün hərbi əməliyyatların dayandırılması, Ağdam, Kəlbəcər və Laçın rayonlarının qaytarılması, Rusiya sülhməramlı kontingentinin yerləşdirilməsi və digər müddəalar müəyyənləşdirildi (Azərbaycan Respublikası Prezidenti, 2020d). Bəyanatın mətni Rusiya Federasiyasının BMT-dəki daimi nümayəndəsinin məktubu ilə Təhlükəsizlik Şurasının rəsmi sənədi kimi yayıldı (United Nations Security Council, 2020).

İlham Əliyevin bu mərhələdəki rolunu iki aspektdən nəzərdən keçirmək məqsədəuyğundur. Birincisi, müharibənin siyasi nəticələrinin beynəlxalq sənəddə təsbit olunmasına yönəlmiş danışıqlarda Azərbaycan tərəfinin mövqeyinin təmsil olunması, ikincisi isə əldə edilmiş nəticələrin sonrakı siyasi proseslər üçün çərçivəyə salınmasıdır. Prezidentin 10 noyabr 2020-ci il tarixli xalqa müraciətində Bəyanatın əsas müddəaları Azərbaycan cəmiyyətinə izah edilmiş və sənədin siyasi əhəmiyyəti vurğulanmışdır (Azərbaycan Respublikası Prezidenti, 2020e).

Bu kontekstdə Onun diplomatik liderliyini hərbi nəticələrin siyasi sənədlərə inteqrasiya prosesi kimi nəzərdən keçirmək daha düzgündür. Çünki döyüş meydanında əldə olunan nəticənin beynəlxalq münasibətlər sistemində davamlı siyasi nəticəyə çevrilməsi üçün diplomatik danışıqlar və sənədləşdirmə zəruri addımlardan biri idi.

Şuşanın azad edilməsinin siyasi və tarixi əhəmiyyəti

8 noyabr 2020-ci ildə Şuşanın azad edilməsi 44 günlük müharibənin ən mühüm hadisələrindən biri oldu. Prezident həmin gün Şəhidlər xiyabanında xalqa müraciətində Şuşa şəhərinin işğaldan azad edildiyini elan etmiş (Azərbaycan Respublikası Prezidenti, 2020c), sonrakı çıxışlarında, o cümlədən MDB Dövlət Başçıları Şurasının 18 dekabr 2020-ci il tarixli iclasındakı nitqində bu hadisənin müharibənin gedişinə təsirini xüsusi vurğulamışdır (Azərbaycan Respublikası Prezidenti, 2020f). Elmi ədəbiyyatda da Şuşa əməliyyatı müharibənin dönüş nöqtəsi kimi qiymətləndirilir (Talışınski, 2025). Şuşanın tarixi-mədəni və strateji əhəmiyyəti bu hadisənin hərbi nəticədən kənara çıxan simvolik məna daşımasına səbəb olmuşdur.

Şuşa amili prezidentin siyasi kommunikasiya xəttində də mühüm yer tutdu. Şuşanın azad edilməsindən sonra verilən mesajlar həm daxili ictimaiyyətə, həm də beynəlxalq auditoriyaya müharibənin gedişində yaranmış yeni vəziyyəti izah edirdi. Bu baxımdan, Şuşa əməliyyatını hərbi-strateji əhəmiyyət daşıyan hadisələr fonunda Azərbaycanın tarixi irsinin, siyasi iradəsinin və informasiya strategiyasının vahid məzmun çərçivəsində təcəssüm etdiyi mühüm siyasi dönüş nöqtəsi kimi qiymətləndirmək mümkündür.

Müharibənin nəticələri və yeni siyasi reallıq

10 noyabr Bəyanatı ilə hərbi əməliyyatların dayandırılması 44 günlük müharibənin siyasi-hüquqi nəticələrinin əsas mərhələsini formalaşdırdı. Bəyanatda Ağdam rayonunun 20 noyabradək, Kəlbəcər rayonunun 15 noyabradək və Laçın rayonunun 1 dekabradək Azərbaycana qaytarılması nəzərdə tutulmuş, həmçinin tərəflərin tutduqları mövqelərdə qalması və sülhməramlı kontingentin yerləşdirilməsi ilə bağlı müddəalar müəyyən edilmişdi (Azərbaycan Respublikası Prezidenti, 2020d). Kəlbəcər rayonu faktiki olaraq 25 noyabr 2020-ci ildə Azərbaycana qaytarılmışdır (Azərbaycan Respublikası Prezidenti, t.y.).

Müharibənin nəticələri Azərbaycan daxilində dövlətçilik və milli yaddaş baxımından yeni mərhələnin başlanğıcı oldu. Eyni zamanda, regionun təhlükəsizlik arxitekturasında ciddi dəyişikliklər baş verdi. Müharibədən dərhal sonra yeni təmas xətti, sülhməramlı kontingentin mandatı və humanitar məsələlər beynəlxalq analitik hesabatlarda əsas gündəm məsələləri kimi qeyd olunurdu

(International Crisis Group, 2021). Sonrakı illərdə Azərbaycan–Ermənistan münasibətlərinin normallaşdırılması, sərhədlərin delimitasiyası və sülh gündəliyi kimi məsələlər ön plana çıxdı.

Prezidentin 2020-ci ilin sonu-2021-ci ilin əvvəlində etdiyi çıxışlarda müharibə nəticələrinin hərbi və siyasi komponentləri birlikdə təqdim edilir. Bu çıxışlarda Azərbaycan Ordusunun əldə etdiyi nəticələr, Şuşanın azad edilməsi və üçtərəfli Bəyanatın siyasi nəticələri ardıcıl şəkildə izah olunmuşdur (Azərbaycan Respublikası Prezidenti, 2020f, 2021). Elmi yanaşma baxımından bu materiallar dövlətin öz fəaliyyətinə verdiyi qiyməti əks etdirən ilkin mənbələrdir və müstəqil tədqiqatlarla müqayisəli şəkildə istifadə edilməlidir.

İlham Əliyevin rolunun kompleks qiymətləndirilməsi

44 günlük müharibə kontekstində İlham Əliyevin siyasi-strateji rolunu dörd əsas istiqamətdə ümumiləşdirmək olar:

1) siyasi qərarvermə - dövlət başçısının çıxışları və rəsmi sənədlər müharibə dövründə siyasi xəttin əsas istiqamətlərini əks etdirir;

2) hərbi-siyasi koordinasiya - prezidentin Ali Baş Komandan statusu siyasi rəhbərliklə hərbi idarəetmə arasında institusional əlaqənin əsas elementlərindən biri olmuşdur;

3) informasiya və diplomatik kommunikasiya - xarici media ilə müsahibələr və beynəlxalq platformalardakı çıxışlar Azərbaycanın mövqeyinin beynəlxalq auditoriyaya çatdırılması üçün istifadə edilmişdir (Mustafazadə, 2022);

4) hərbi nəticələrin siyasi sənədlərlə rəsmiləşdirilməsi və sonrakı siyasi gündəmin formalaşdırılması - 10 noyabr Bəyanatı bu baxımdan əsas sənədlərdən biridir.

Bununla belə, liderlik rolunun obyektiv təhlili üçün qələbənin bütün səbəblərini bir şəxsə bağlamaq düzgün metodoloji yanaşma olmazdı. Müharibənin nəticəsinə Azərbaycan Ordusunun döyüş qabiliyyəti, hərbi qulluqçuların fədakarlığı, komandanlıq və idarəetmə sistemi, müdafiə sənayesi və texnoloji imkanlar, iqtisadi dayanıqlılıq, diplomatik əlaqələr və cəmiyyətin səfərbərliyi kimi amillər də təsir etmişdir (Cheterian, 2024; Gressel, 2020). Bu səbəbdən "liderlik" burada nəticənin yeganə izahı kimi deyil, dövlət səviyyəsində siyasi koordinasiya və qərarvermənin ayrıca komponenti kimi başa düşülür (Burns, 1978).

Prezidentin informasiya fəaliyyətinin ayrıca istiqamət kimi araşdırılması (Mustafazadə, 2022) və müharibənin siyasi nəticələri ilə prezidentin rolu arasında əlaqənin qurulması (Talışınski, 2025) bu sahədə tədqiqatların davam etdiyini göstərir. Gələcək tədqiqatlarda prezident səviyyəsində qəbul edilən siyasi qərarlarla hərbi komandanlığın əməliyyat qərarları arasındakı qarşılıqlı əlaqənin, beynəlxalq diplomatik proseslərin müharibənin nəticələrinə təsirinin və müharibə dövründə həyata keçirilən informasiya siyasətinin effektivliyinin ölçülə bilən göstəricilər əsasında sistemli şəkildə araşdırılması Azərbaycanın müasir siyasi tarixinin daha dərindən öyrənilməsinə mühüm elmi töhfələr verəcəkdir.

NƏTİCƏ

44 günlük Vətən müharibəsi Azərbaycanın müasir siyasi tarixində mühüm yer tutan, ölkənin hərbi-siyasi mövqeyində və regiondakı qüvvələr nisbətində dəyişikliklər yaradan hadisədir. 2020-ci il sentyabrın 27-də başlayan hərbi əməliyyatların noyabrın 10-da üçtərəfli Bəyanatla dayandırılması müharibənin siyasi nəticələrini müəyyənləşdirdi və sonrakı regional proseslər üçün yeni şərait formalaşdırdı. Müharibənin təhlili göstərir ki, bu nəticələrin mahiyyətini anlamaq üçün hərbi əməliyyatların gedişi ilə yanaşı, siyasi qərarvermə, beynəlxalq diplomatiya, informasiya siyasəti və əldə olunmuş nəticələrin hüquqi-siyasi sənədlərdə təsbit olunması da nəzərə alınmalıdır.

Araşdırma çərçivəsində İlham Əliyevin müharibə dövründəki fəaliyyəti siyasi qərarvermə, hərbi-siyasi koordinasiya, informasiya və diplomatik kommunikasiya, habelə müharibənin nəticələrinin siyasi müstəvidə rəsmiləşdirilməsi istiqamətlərində nəzərdən keçirilmişdir. Prezidentin xalqa müraciətləri, rəsmi çıxışları, Təhlükəsizlik Şurasının iclaslarına dair materiallar və 10 noyabr Bəyanatı göstərir ki, həmin dövrdə dövlətin siyasi mövqeyinin ifadə olunması, hərbi hadisələrin ictimaiyyətə izahı və Azərbaycanın mövqeyinin beynəlxalq auditoriyaya çatdırılması siyasi fəaliyyətin mühüm istiqamətlərini təşkil etmişdir.

Müharibənin nəticələri Azərbaycanın daxili siyasi həyatına təsir göstərməklə yanaşı, regionun təhlükəsizlik gündəliyində də yeni məsələləri ön plana çıxardı. Sərhədlərin delimitasiyası, Azərbaycan–Ermənistan münasibətlərinin normallaşdırılması, humanitar məsələlər və sülh gündəliyi müharibədən sonrakı dövrün əsas istiqamətləri sırasına daxil oldu. Bu proseslər 44 günlük müharibənin siyasi əhəmiyyətinin onun başa çatdığı tarixlə məhdudlaşmadığını və nəticələrinin sonrakı regional münasibətlər kontekstində araşdırılmasının vacibliyini göstərir.

Tədqiqatın mənbə bazası əsasən açıq rəsmi sənədlərdən və elmi ədəbiyyatdan ibarət olduğuna görə hərbi komandanlıq səviyyəsində qəbul edilmiş qərarların daxili mexanizmləri barədə qəti nəticələr çıxarmaq mümkün deyil. Gələcək araşdırmalarda siyasi rəhbərliklə hərbi komandanlıq arasındakı qərarvermə əlaqələrinin, diplomatik proseslərin müharibənin nəticələrinə təsirinin və informasiya siyasətinin effektivliyinin daha geniş mənbələr və ölçülə bilən göstəricilər əsasında öyrənilməsi məqsədəuyğundur. Bu istiqamətlər üzrə tədqiqatlar 44 günlük Vətən müharibəsinin siyasi tarixinin daha dərindən araşdırılmasına və Azərbaycanın müasir dövlətçilik təcrübəsinin elmi baxımdan qiymətləndirilməsinə imkan verəcəkdir.

ƏDƏBİYYATLAR

Azərbaycan Respublikası Prezidenti. (2020a, 27 sentyabr). İlham Əliyev xalqa müraciət edib. Azərbaycan Respublikası Prezidentinin rəsmi internet səhifəsi. https://president.az/az/articles/view/40968

Azərbaycan Respublikası Prezidenti. (2020b, 27 sentyabr). İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilib. Azərbaycan Respublikası Prezidentinin rəsmi internet səhifəsi. https://president.az/az/articles/view/40969

Azərbaycan Respublikası Prezidenti. (2020c, 8 noyabr). İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabanda və Şəhidlər xiyabanında olublar. Azərbaycan Respublikası Prezidentinin rəsmi internet səhifəsi. https://president.az/az/articles/view/45756

Azərbaycan Respublikası Prezidenti. (2020d, 10 noyabr). Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin Bəyanatı. Azərbaycan Respublikası Prezidentinin rəsmi internet səhifəsi. https://president.az/az/articles/view/45923

Azərbaycan Respublikası Prezidenti. (2020e, 10 noyabr). İlham Əliyev xalqa müraciət edib. Azərbaycan Respublikası Prezidentinin rəsmi internet səhifəsi. https://president.az/az/articles/view/45924

Azərbaycan Respublikası Prezidenti. (2020f, 18 dekabr). İlham Əliyev MDB Dövlət Başçıları Şurasının videokonfrans formatında keçirilən iclasında iştirak edib. Azərbaycan Respublikası Prezidentinin rəsmi internet səhifəsi. https://president.az/az/articles/view/49197

Azərbaycan Respublikası Prezidenti. (2021, 6 yanvar). İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin yekunlarına həsr olunmuş videoformatda müşavirə keçirilib. Azərbaycan Respublikası Prezidentinin rəsmi internet səhifəsi. https://president.az/az/articles/view/49933

Azərbaycan Respublikası Prezidenti. (t.y.). Kəlbəcər. Azərbaycan Respublikası Prezidentinin rəsmi internet səhifəsi. Müraciət tarixi: 1 oktyabr 2026. https://president.az/az/articles/view/69242

Broers, L. (2019). Armenia and Azerbaijan: Anatomy of a rivalry. Edinburgh University Press.

Burns, J. M. (1978). Leadership. Harper & Row.

Cheterian, V. (2024). Technological determinism or strategic advantage? Comparing the two Karabakh wars between Armenia and Azerbaijan. Journal of Strategic Studies, 47(2), 214–237. https://doi.org/10.1080/01402390.2022.2127093

Cornell, S. E. (2011). Azerbaijan since independence. M. E. Sharpe.

de Waal, T. (2013). Black garden: Armenia and Azerbaijan through peace and war (10th anniversary ed.). New York University Press.

Gressel, G. (2020, November 24). Military lessons from Nagorno-Karabakh: Reason for Europe to worry. European Council on Foreign Relations. https://ecfr.eu/article/military-lessons-from-nagorno-karabakh-reason-for-europe-to-worry/

Huntington, S. P. (1957). The soldier and the state: The theory and politics of civil–military relations. Belknap Press of Harvard University Press.

International Crisis Group. (2021). Post-war prospects for Nagorno-Karabakh (Europe Report No. 264). https://www.crisisgroup.org/rpt/europe-central-asia/armenian-azerbaijani-conflict/264-post-war-prospects-nagorno-karabakh

Krippendorff, K. (2018). Content analysis: An introduction to its methodology (4th ed.). SAGE Publications.

Mustafazadə, T. (2022). Vətən (II. Qarabağ) müharibəsinin informasiya təminatında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rolu. Akademik Tarih ve Düşünce Dergisi, 9(Özel sayı), 16–38. https://dergipark.org.tr/tr/pub/atdd/article/1197334

Talışınski, L. (2025). II Qarabağ müharibəsinin (27 sentyabr – 10 noyabr 2020) siyasi nəticələri. Akademik Tarih ve Düşünce Dergisi, 12(6), 21–26. https://doi.org/10.5281/zenodo.18096216

United Nations Security Council. (1993a). Resolution 822 (1993) (S/RES/822). https://undocs.org/S/RES/822(1993)

United Nations Security Council. (1993b). Resolution 853 (1993) (S/RES/853). https://undocs.org/S/RES/853(1993)

United Nations Security Council. (1993c). Resolution 874 (1993) (S/RES/874). https://undocs.org/S/RES/874(1993)

United Nations Security Council. (1993d). Resolution 884 (1993) (S/RES/884). https://undocs.org/S/RES/884(1993)

United Nations Security Council. (2020). Letter dated 10 November 2020 from the Permanent Representative of the Russian Federation to the United Nations addressed to the Secretary-General (S/2020/1104). https://digitallibrary.un.org/record/3891171

ABSTRACT

AZERBAIJAN'S VICTORY IN THE 44-DAY PATRIOTIC WAR: POLITICAL DECISION-MAKING, STRATEGIC COMMUNICATION, AND STATE LEADERSHIP

Vusala Abdurrahimova

College of Industry and Technology under the Azerbaijan State Oil and Industry University, Baku, Azerbaijan

The article examines the historical and political significance of the 44-day Patriotic War (27 September – 10 November 2020) and analyses the political-strategic activity of Ilham Aliyev, President of the Republic of Azerbaijan and Supreme Commander-in-Chief of the Armed Forces, during the war. The study traces the political and legal background of the conflict, the outbreak of hostilities, state governance and information policy in wartime, international diplomatic communication, the liberation of Shusha on 8 November, and the political implications of the trilateral statement of 10 November. The source base comprises speeches and documents published on the official website of the President of Azerbaijan, resolutions and documents of the UN Security Council, and relevant Azerbaijani and international scholarship, examined through chronological-comparative and qualitative content analysis. The article argues that the President's documented role can be examined along four dimensions: political decision-making, military-political coordination, international communication, and the shaping of the post-war political framework. At the same time, the study avoids reducing the military outcome to the activity of a single political actor, emphasising the combined contribution of the armed forces, state institutions, military-technical capacity, economic resources and diplomatic factors. The main purpose is to determine the place of the 44-day war in Azerbaijan's contemporary history and to identify the documented political-strategic dimensions of the President's role.

Keywords: *44-day Patriotic War; Second Karabakh War; Ilham Aliyev; political leadership; strategic communication; Shusha; trilateral statement of 10 November 2020*

АННОТАЦИЯ

ПОБЕДА АЗЕРБАЙДЖАНА В 44-ДНЕВНОЙ ОТЕЧЕСТВЕННОЙ ВОЙНЕ: ПРИНЯТИЕ ПОЛИТИЧЕСКИХ РЕШЕНИЙ, СТРАТЕГИЧЕСКАЯ КОММУНИКАЦИЯ И ГОСУДАРСТВЕННОЕ УПРАВЛЕНИЕ

Вусала Абдуррагимова
Промышленно-технологический колледж Азербайджанского государственного нефтегазового университета, Баку, Азербайджан

В статье рассматривается историко-политическое значение 44-дневной Отечественной войны (27 сентября – 10 ноября 2020 года) и анализируется политико-стратегическая деятельность Президента Азербайджанской Республики, Верховного главнокомандующего Вооружёнными силами Ильхама Алиева в период войны. Последовательно исследуются политико-правовой фон конфликта, начало военных действий, государственное управление и информационная политика в военное время, международная дипломатическая коммуникация, освобождение Шуши 8 ноября и политические последствия трёхстороннего заявления от 10 ноября. Источниковую базу составляют выступления и документы, опубликованные на официальном сайте Президента Азербайджанской Республики, резолюции и документы Совета Безопасности ООН, а также азербайджанская и зарубежная научная литература; материалы изучены с помощью хронологически-сравнительного и качественного контент-анализа. Показано, что роль Ильхама Алиева прослеживается по четырём направлениям: принятие политических решений, военно-политическая координация, международная коммуникация и формирование послевоенной политической рамки. Одновременно подчёркивается, что военный результат методологически некорректно сводить к деятельности одного политического деятеля: существенное значение имели подготовка армии, самоотверженность военнослужащих, работа государственных институтов, военно-технические и экономические ресурсы, а также дипломатические факторы. Цель исследования – системно показать место 44-дневной войны в новейшей истории Азербайджана и документально подтверждаемые политико-стратегические аспекты деятельности Президента.

Ключевые слова: *44-дневная Отечественная война; Вторая Карабахская война; Ильхам Алиев; политическое лидерство; стратегическая коммуникация; Шуша; трёхстороннее заявление от 10 ноября 2020 года*